

Vaqif İsaqoğlu

# AYDIN ULUXANLININ ÖZÜ VƏ SÖZÜ

**Şairin özünü tanımaq üçün əvvəlcə sözünü tanımaq lazımdır. Sözü ilə özü bir-birini tamamlayan, sözü ilə şəxsiyyəti üst-üstə düşən şairlər azdı, çox azdı.**

Sözü özünü, özü sözünü inkar edən, sözü ilə özü ziddiyyət təşkil edən o qədər şairlər görmüşəm ki… Gördüyümə peşman olmuşam. Düşünürəm ki, Tanrının pıçıltılarını yazan şair, sözü kimi saf və duru olmalıdır, işıqlı olmalıdır. Şairin iç dünyasından süzülüb gələn şeirlərdə işıqla bərabər, ruh da olmalıdır. Ruh sözün ölçüsüdür. Şairin ruhu sözlərində əks olunur; ruh yoxdursa, deməli, nəfəs də yoxdur, səs də yoxdur…

## *Ruhu şeirlərində*

əks olunan, ürəyinin səsi şeirlərində eşidilən şairlərdən biri də Aydın Uluxanlıdı. Aydını ötən əsrin 80-ci illərindən tanıyıram. Onu tanıyanda şairin hələ bir misrasını da oxumamışdım. Onun şair olub-olmadığını da bilmirdim. Bircə onu bilirdim ki, Aydın "Gənclik" nəşriyyatında çalışır. Həmin nəşriyyatda həmişə qələbəlik olardı. Aydın Uluxanlının sakit və utancaq görkəmi, sadəliyi və sadəlövhlüyü, Ay kimi aydınlığı, su kimi duruluğu onun şairliyindən, birdə ki, əsl şair kimi təmizliyindən xəbər verirdi. O, susanda da danışırdı. Danışanda da mülayim və yavaş səslə danışırdı. Və onun səsini hamı eşidirdi. Səmimi deyirəm. Mən Aydın Uluxanlının timsalında əsl şair gördüm. Şair necə olmalıdır? Bu sualın cavabını Aydının özündə və sözündə tapdım.

Bəli, şairin yaradıcılığı ilə şəxsiyyəti bir-birini tamamlamalıdır. Şair yazdığı kimi olmalıdır, necə deyərlər, olduğu kimi görünməli, göründüyü kimi olmalıdır (Mövlana).

***Aydının iç dünyası ağappaq işığa bürünüb. Yox, bu ağappaq işıq deyil, bu ağappaq çiçəkdi. Çünki şairin şeirləri də çiçək kimi təravətlidi, zərifdi, könül oxşayandı. Amma bu şeirlərin ömrü çiçək kimi az ömürlü deyil, əbədidi. Bunu mən demirəm. Bunu Aydının şeirləri deyir. Bu şeirlərin yaşı min illərlə ölçülür. O, şeirlərini elə bil ki, min il öncə yazıb və bu gün bizə təqdim eləyib. Şairin şeirləri min il öncə yazılsa da, öz təravətini, mənasını, təsir gücünü hələ də itirməyib və min il sonra da itirməyəcək. Çünki Aydın Uluxanlı dünənin, bu günün yox, həm də gələcəyin şairidir.***

Gələcək nəsillər onu bizdən yaxşı dərk edəcək, şeirlərinə daha yaxşı qiymət verəcək və onu sevə-sevə oxuyacaqlar. Biz Aydın Uluxanlını hələ lazımınca dərk edə bilmirik. Çünki şairlər bolluğunda, "şeir yazmağın siqaret çəkməkdən asan olduğu" (M. Araz) bir zamanda əsl şairləri dərk etməkdə çətinlik çəkirik. İndi o qədər şair var ki… Və həm də heç kim, heç kimin kitabını oxumur. Çoxlarını qarnı daha çox düşündürür. İndi ağlı gödəninə calaq adamları əhatə dairəsində şair kimi tanınmaq da zor işdi. İndi şair adını, şair təmizliyini qoruyub-saxlamaq, şair kimi tanınmaq və sevilmək çətin işdi.

Deyəsən, mətləbdən uzaqlaşdım. Axı, mən Aydın Uluxanlıdan bir-neçə kəlmə söz demək istəyirəm. Demək istəyirəm ki, hələ 28 il öncə "Qırmızı axşamların birində" ilk şeirlər kitabı ilə görüşümüzə gələn şair uzun illər oxucuların gözlərini yolda qoydu. Düz 28 il oxucuların görüşünə gəlməyən Aydın Uluxanlı bu illər ərzində unudulmadı, çünki adını poeziyasevərlərin ürəyinə yazmışdı, qan yaddaşına yazmışdı. Poeziyasevərlər bilirdilər ki, Azərbaycan ədəbiyyatında imzası imzalar içində təsdiqlənən Aydın Uluxanlı adında bir şair də var və həmin o şair min illərdir ki, Adəmdən üzü bəri yol gəlir və bu yol onu haqqın dərgahına doğru aparır.

Aydın 28 il kitab çap elətdirmədi. 28 il susdu. Yox! O, düz 28 il bu dünyanı səhmana salmağa çalışdı, insanlara insanlığı öyrətməyə çalışdı, azadlıq aşiqi kimi alovlandı, haqsızlığa qarşı səsini ucaltdı, millətin haqq bağıran səsi oldu.

***Və ən nəhayət, 28 ildə onun iç dünyasını silkələyən, duyğularını təlatümə gətirən, həyatımızı dəyişə biləcək fikir və düşüncələrini bir kitabda toplayıb oxu-***




***culara "Ana" adıyla təqdim elədi. "Ana" - Aydının ikinci şeirlər toplusu belə adlanır. "Vektor" Beynəlxalq Nəşrlər Evində (2019) çap olunan "Ana" kitabındakı şeirlərdən azadlıq qoxusu, yurd yerlərin həsrət qoxusu duyulur. Onun şeirlərindən Göyçənin, Zəngibasarın…ətri gəlir, nəfəsi gəlir, itirilmiş torpaqlarımızın naləsi eşidilir... Kəlbəcər, Laçın, Qubadlı…dağlarının harayı, talan olan diyarımızın hıçqırtısı eşidilir.***

## *Yenilməz sərkərdə*

gücündə olan misralar, sərrast deyimlər deməyə əsas verir ki, "Ana"da bir xəzinə toplanıb. Şeirlərin hər misrası qiyməti olmayan bir incidir. Bu "incini" safçürük etmək fikrində deyiləm. Sadəcə olaraq bildirmək istəyirəm ki, Aydın Uluxanlının şeirləri ona görə təsirli və ürəyəyatımlıdır ki, üstündə Tanrının xeyir-duası var. Mənə elə gəlir ki, şair dostum "Ana" kitabını Tanrının xeyir-duasından sonra işıq üzünə çıxardıb. Bir-birindən mənalı və təsirli şeirləri oxuduqca şairin misralarına səcdə etməyə bilmirdim. Misraların poetik çəkisi, fikir və məna tutumu, axıcılığı, bayatı və laylalar qədər şirinliyi…məni elə ovsunlamışdı ki, bir müddət bu ovsundan çıxa bilmədim.

Məgər "Arazın suları" şeirindəki bu misraları oxuyandan sonra necə ovsunlanmaya bilərsən?

**Doğram-doğram doğranırdı,**
**yarğan-yarğan yırğalanırdı**
**Arazın yorğamlı suları.**
**Qılınc kimi işıldayırdı,**
**şimşək kimi şaqqıldayırdı**
**Arazın şaqqanaq suları.**
**Tiyədən betər kəsirdi**
**Dağları, dərələri, yolları,**
**yalları, yamacları, kolları,**
**ağacları, meşələri, gülləri,**
**Paramparça edirdi elləri,**
**dağıdırdı, dağıdırdı selləri.**

Sözün və məsləkin işığında ləkəsiz bir ömür yaşayan Aydın Ulucanlının hər şeiri duyğularımın yaddaşına su kimi hopdu və Aydın qələminin qüdrətinə bir daha heyran oldum. Həm də şairin "Söz ovçusu" olduğuna bir daha inandım. İnandım ki, Aydın söz ovlayır, söz söyləyir, pusquda duraraq sözləri kəməndə salır:

**Söz əkirəm, söz becərirəm,**
**Söz emal edirəm, söz hasil edirəm**
**Vətən torpağının laylarından…**

Vətən torpağının laylarından söz hasil edən şairin sözləri dünyanın özü qədər əbədidir.

Onun şeirləri şimşək qədər ötərgi deyil, əbədidir. Bu şeirlər ədəbiyyatımızın əbədi dünyasına daxil olmaq hüququ qazanıb. Şairin ürək çırpıntılarından doğulan şeirləri həyəcansız oxumaq mümkün deyil. Məhz ona görə də şairin şeirləri yaddaşımda tutqun kölgə kimi deyil, parlaq işıq kimi qaldılar.

## *Aydının şeirləri*

sözü görənlər və duyanlar üçün yazılıb. İmam işığının çevrəsində yazılan hər şeirin öz rəngi, öz çəkisi, öz təsir gücü var.

Şair şeirlərində həm də türkdaşlıq, vətəndaşlıq, soydaşlıq borcunu yerinə yetirir.

Şairin daxili dünyasında nə varsa sözlə ifadəsində duyulur.

"Ana" kitabında şair Tanrının sevdiyi bəndələrdən də söz açmağı unutmur. Unudulmaz Əbülfəz Elçibəyə, şair Abbas Abdullaya, yazıçı Eyvaz Əlləzoğluna, ədəbiyyatşünas Kamil Vəli Nərimanoğluna, jurnalist Aydın Canıyevə, görkəmli şair Əlisəmid Kürə və başqalarına ünvanladığı şeirlərdə də vətənin, millətin harayı eşidilir.Kitabda yer almış "Qaçqınlar", "Azadlıq aşiqi" və "Meydan" poemaları da Aydın qələminin qüdrətindən xəbər verir. Bəli, öz istedadından su-istifadə etməyən Aydın Uluxanlı sözün içində ömür sürən şairlərdən biridir və onun şeirlərinin ölməzliyinə özümə inandığım kimi inanıram.

Məgər bu misralar ölə bilərmi? Məgər "Vətən" şeirindəki bu misralar Günəş ömürlü deyilmi?

**Səni divar-divar, addım-addım,**
**Məhəllə-məhəllə itirdim.**
**Küçə-küçə, ev-ev, kərpic-kərpic,**
**Meydan-meydan itirdim, vətən.**
**Söz-söz, misra-misra,**
**nəğmə-nəğmə itirdim beləcə.**

Və ən nəhayət, demək istəyirəm ki, "Ana" şeirlər toplusu ilə Aydın Uluxanlı sözün mayasına haram qatmayan, sözün yaddaşında qalan bir şair olaraq "Bizim günümüz" şeirində belə deyir:

**…Təbrizliyəm, Xoyluyam,**
**Həmədan türküyəm mən,**
**Anadolu oğluyam,**
**İstanbul uşağıyam,**
**Qaraçay-çərkəzliyəm,**
**Sibirli, Altaylıyam,**
**Tuvada göz qıymışam,**
**Saxada və Qarşı yaxada**
**Boya-başa çatmışam.**

Bəli, "Ana" kitabı Aydın Uluxanlının oxuculara ən xoş hədiyyəsidi. Bu söz hədiyyəsinin qiymətinə söz yox.

Həmişə səsin gəlsin, Aydın Uluxanlı! Oxucuları indən sonra intizarda qoyma, şair qardaşım!